# Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin sığortalanması

# Kənd təsərrüfatının sığortalanması nə üçün vacibdir?

- Kənd təsərrüfatının davamlı və dinamik inkişafını təmin etmək üçün

- Ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatına nail olmaq üçün

# Sıgorta  nədir ?

**Sığorta** -  sığortalının və ya sığorta olunanın əmlakı, həyatı,  sağlamlığı, mülki məsuliyyəti,  həmçinin qanunvericiliklə qadağan  olunmayan fəaliyyəti,  o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin  müdafiəsi   sahəsində   riskin ötürülməsinə və ya bölüşdürülməsinə  əsas-lanan  münasibətlər sistemidir.

# Risk anlayışı

- Risk – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin  baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sıöortaçının üzərinə ğötürdüyü öhdəlik deməkdir.

# Sahibkarlıq riskləri

**Sahibkarlıq riskləri**- sahibkarlıq fəaliyyəti zamanı məhsul istehsalında,xidmətlərin göstərilməsində, ticarət, əmtəə - pul və maliyyə əməliyyatlarında, həmçinin, elmi-texniki layihələrin həyata keçirilməsində yaranan risklərdir.

# Sahibkarlar üçün sıgortalanma hansı ehtiyacdan yaranır

- Sahibkarlıq risklərinin obyektivliyindən
- Sahibkarlıq fəaliyyətində yaranan qeyri – müəyyənlilik şəraitindən

# Əsas sığorta terminləri

- **Sığortaçı** – sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs
- **Sığortalı**- sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi
- **Sığorta olunan-** sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs

- **Sığorta şəhadətnaməsi** – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və sığorta olunana verilən sənəd
- **Sığorta hadisəsi-** qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal

# Sığortalanan əmlakın növləri

Hüquqi şəxslərin sığortalanmasının nümunəvi (standart) qaydalarına görə aşağıda qeyd olunan daşınan və daşınmaz əmlak növləri sığortalanır:

- Binalar (istehsal, inzibati, sosial-mədəni təyinatlı, ictimai istifadə və s. )
- Tikililər (qüllələr, aqreqatlar və istehsal-texnoloji qurğular )
- Mühəndis və istehsal-texnoloji avadanlıqlar (komunikasiya, kompüter avadanlığı, ötürücü və güc maşınları (qurğular))
- Təsərrüfat tikililəri (qaraj, ambar, talvar, örtülü sahələr və mühafizə edilmiş sahələr və s.)
- Tamamlanmamış tikili obyektlər
- İnventar
- Mal-material qiymətliləri

# Əmlakın sığortalanmasında sığortaçı təşkilatın öhdəlik limitlərinin təyini

- Binalar,tikililər və təssərrüfat tikililəri üçün - müvafiq istismar dövrü, köhnəlməsi və analoji istismar texniki vəziyyəti olan tikilinin dəyərinə üyğun
- Mühəndis və istehsal-texnoloji avadanlıqlar üçün – müvafiq avadanlığın alinması dəyərinə (köhnəlmə məbləği çıxılmaq şərti ilə)

# Əmlakın sığortalanmasında sığortaçı təşkilatın öhdəlik limitlərinin təyini

- Tamamlanmamış tikili obyektlər üzrə - müqavilə bağlanan məqama təyin edilmiş qiymət, norma və tariflər əsas götürülərək sərf olunmuş maddi və əmək xərcləri nəzərə alınmaqla qiymətləndirilir
- Mal-materiallar üçün –satış qiymətindən çox olmayaraq onların istehsalına sərf olunan xəclərə uyğun qiymətləndirilir
- İnventar və mebel üçün - müqavilə bağlanan zaman mövcud qiymətlərə uyğun qiymətləndirilir

# Sahibkarlıq subyektlərinə məxsus heyvanların sığorta təminatı və müvafiq sığorta hadisələri

**Sığorta təminatı:**

- 6 aylıqdan yuxarı iribuynuzlu mal-qara, qoyun və keçilər
- 1 yaşdan yuxarı at, dəvə, qatır və arı ailələri
- 4 aylıqdan yuxarı donuz,dovşan və xəzdərili vəhşi heyvanlar
- 3 aylıqdan yuxarı quşlar (broyler istehsalı üzrə ixtisaslaşdırılmış quşçuluq fabriklərində quşlar- 1 aylıqdan)

**Sığorta hadisələri:**

yoluxucu xəstəliklər, yanğın, çovğun, dolu, ildırım vurması nəticəsində tələf olması halları

# Bitkiçilik məhsullarının sığorta təminatı və müvafiq sığorta hadisələri

**Sığorta təminatı:**

- Quraqlıq hadisəsi nəticəsində əmələ gələn itkilər
- Partlayış nəticəsində əmələ gələn itkilər
- Təbii itkilər
- Xəstəliklər və ziyanvricilər nəticəsində əmələ gələn itkilər
- Məhsulun vaxtında toplanmamasına görə itkilər
- Səlahiyyətli orqanlar tərəfindən əkin sahələrində həyata keçirilən tədbirlər nəticəsində əmələ gələn itkilər

**Sığorta hadisələri:**

Kənd təsərrüfatı və çoxillik əkin məhsulları üçün yanğın, dolu, sel, daşqın və şaxta vurması sığorta hadisələri sayılır

# Sığortalanma mərhələləri

- Sığortalanması vacib olan fəaliyyətin, əmlakın sığorta növlərinin seçilməsi
- Sığorta şirkətinin seçilməsi
- Sığorta şirkətinə müraciət
- Şirkət tərəfindən sahibkarın əmlakının qiymətləndirilməsi və fəaliyyətinin monitorinqi

# Sığortalanma mərhələləri

- Müqavilənin bağlanması
- Müqavilə şərtlərinə uygun olaraq siğorta haqqının ödənilməsi
- Sığorta hadisəsi baş verdiyi halda təyin olunmuş qaydada sığortaçıya müraciət
- Dəymiş ziyanın qiymətləndirilməsi və muvafiq ödənişin aparılması

# Kənd təsərrüfatında sığortalanma nələri əldə etməyə imkan verir?

- İnvestisiya axını üçün mümbit şərait yaradır
- Biznesin qorunmasına zəmanət verir
- Davamlı inkişafı təmin edir

# Kənd təsərrüfatında sahibkarlıq subyektlərinin sığortalanmasına Dövlət dəstəyi

Azərbaycan Respublikasi Nazirlər Kabinetinin 4 mart 2004-cü il tarixli 22 nömrəli qərarina əsasən sığortalanmasına dövlət tərəfindən maliyyə yardımı göstərilən kənd təsərrüfatı əmlakının və sığorta hadisələrinin növləri aşağıdakı kimi müəyyən edilmişdir:

- buğda, arpa, qarğıdalı, günəbaxan - dən üçün, kartof, şəkər çuğunduru, tərəvəz (göyərti istisna olmaqla), meyvə, sitrus və üzüm bağlarının məhsulları - yanğın, dolu, sel, daşqın, şaxta vurması.

Müqavilə üzrə hesablanmış sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsi sığorta haqqının 50 faizi həcmində müəyyən edilmişdir.

# Azərbaycanda kənd təsərrüfatında sığortalanmanı həyata keçirən şirkətlər

- Azərsığorta
- Başak İnam

Dikər sığorta şirkətləri  əmlak, nəqliyyat və həyat sığortalarını həyata keçirirlər:

- MBASK
- Atəşkah
- Garant və s.

Diqqətinizə görə təşəkkür edirik.